# İbtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi təcrübəsindən

**Həcər Hacıyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** Həcər715@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof.L.N. Qasımova,
ped.ü.f.d., dos.G.V. Sultanova

**Açar sözlər:** Azərbaycan dili, tərbiyə, milli-mənəvi dəyərlər, şagird
**Ключевые слова:** Азербайджанский язык, воспитание, национальные и нравственные ценности, ученик
**Key words:** Azerbaijan language, upbringig, national-menevis,pupil

Mənəvi tərbiyə dedikdə, gənc nəsildə mənəvi şüurun, mənəvi hisslərin və davranışın formalaşmasının məqsədyönlü prosesi başa düşülür. Mənəvi tərbiyə insan mənəviyyatının, əxlaqının formalaşmasında mühüm rol oynayır. Mənəvi mədəniyyət hamıya, bütün sosial təbəqələrə aid olan universal dəyər və sərvətdir. Azərbaycanda milli-mənəvi dəyərlərin çox qədim və şərəfli tarixi vardır. Məhz mənəvi tərbiyə sayəsində adi fərd kimi dünyaya gələn insan əsl mənada şəxsiyyətə çevrilir. Burada sözsüz ki, genetik keyfiyyətlər, sosial mühit və fitri qabiliyyətlər də mühüm amil kimi özünü güstərir. Mənəvi kamillik şəxsiyyətin ən mühüm göstəricilərindəndir. İnsanın ağlını, təfəkkürünü inkişaf etdirmək nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının müsbət əxlaqi keyfiyyətlərinin formalaşması da bir o qədər mühüm və zəruridir.

Şagirdlər məktəbdə bilik, bacarıq və vərdişlərə yiyələnməklə inkişaf edirlər. Təlimin əsas vəzifəsi uşaqların hərtərəfliliyini təmin etməkdən ibarətdir. Bu baxımdan dərs mühüm rol oynayır. Hər bir dərsin məqsədləri sırasında tərbiyə də mühüm yer tutur.

Mənəvi tərbiyənin əsası ibtidai sinifdən qoyulmalıdır. Çünkü mənəvi tərbiyənin nə olduğunu bilməyən şagird ölkəmizə layiqli və öz xalqı üçün can yandıran bir şəxsiyyət kimi formalaşa bilməz. Hazırkı dövrdə ümumitəhsil ocaqlarında kiçik yaşlı məktəblilərə vətənpərvərlik tərbiyəsi, humanizm, yaxşılıq və xeyirxahlıq, böyüyə hörmət, düzgünlük və doğruçuluq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq tərbiyəsi dərslərdə, xüsusilədə Azərbaycan dili dərslərində aşılanır. Bu da onun mənəvi və əxlaqi keyfiyyətlərinin forlamaşmasına gətirib çıxarır.

Mənəvi tərbiyənin sistemli, məqsədyönlü, ardıcıl şəkildə aparılması saf əqidəli, zəngin mənəviyyatlı, öz soykökünə, Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, xalqının mənəvi, mahiyyətcə milli, keyfiyyətcə humanist və mədəni sərvətlərinə möhkəm yiyələnən, onu qoruyan və daim inkişaf etdirən sağlam nəslin yetişməsinə kömək göstərməkdir.

Təhsilin ən böyük vəzifələrindən biri də tərbiyəvi işin həyata keçirilməsini təşkil edir. Özü də milli ruhu nəsillərə tərbiyə etmək, bunun üçün böyuməkdə olan nəsli xalqımızın tarixən formalaşmış milli-mənəvi dəyərləri əsasında tərbiyə etmək lazımdır.

Məlum olduğu kimi, mənəvi tərbiyə kiçik yaşlardan aparıldıqda onun səmərəsi daha yüksək olur. Məktəb illərində, ilk növbədə ibtidai sinif şagirdləri mənəvi tərbiyə ilə əhatə olunmalıdır. Bədii nümunələr, xüsusən kiçik yaşlı məktəbliləri özünə daha çox cəlb edərək

hiss və duyğulara təsir göstərmək gücünə malikdir. Bu sahədə aparılan işlərin ardıcıl, səmərəli görülməsi insanı mənəvi inkişafa doğru aparır.

Bu milli-mənəvi dəyərlərin nəsillərə ötürülməsində ümumtəhsil məktəblərində, o cümlədən I-IV siniflər üçün tədris olunan Azərbaycan dili dərsi çox böyük rol oynayır. Azərbaycan dili dərslərində şagirdlərə vətənpərvərlik, humanizm, ədalətlilik, şərəf və ləyaqət, xoş rəftar və davranış gözəlliyi, intizamlılıq, əməksevərlilik, təmizlik, qonaqpərvərlik, əməyə hörmət, mərdlik, ata-anaya hörmət, qadına hörmət, dostluqda sədaqətlilik, halallıq, nikbinlik, səbr, xeyirxahlıq, düzgünlük və doğruçuluq, islam dininə və onun dəyərlərinə hörmət etmək, və s. kimi hislər aşılanır. Şagirdlərin milli-mənəvi ruhda böyüməsində müəllim nümunəsi də çox böyük rol oynayır.

Abdulla Şaiq uşaqların mənəviyyatının formalaşmasına fikir verilməsini məqsədəmüvafiq sayır, bu sahədə müəllimin roluna böyük diqqət yetirirdi. O, yazırdı: "Bir bağban min zəhmətlə əkdiyi və becərdiyi meyvə bağının məhsulunu sevə-sevə dərdiyi kimi, bir müəllim də mənəvi qidalarla becərdiyi tələbələrinin kamala çatdığını və onların xalqa, vətənə, cəmiyyətə etdiyi xidmətləri görüncə bir bağbandan daha bəxtiyar görünür, çünkü onun yetiçdirdiyi məhsul daha qiymətli və daha səmərəlidir.

Yuxarıda qeyd etdiyim kimi, şagirdlərə vətənpərvərlik hissi kiçik yaşlarında məktəblərdə, xüsusilə də Azərbaycan dili dərslərində tərbiyə edilir. Buna II sinif Azərbaycan dili dərsliyindəki Əhməd Cəmilin "Vətən", Rafiq Yusifoğlunun "Üçrəngli bayraq" şeirlərini, Gülşən Orucovanın "Əbədi məşəl" hekayəsini və s. misal göstərmək olar. Əhməd Cəmil yazırdı:

Ey Vətən, ana Vətən
Heyranam sana, Vətən!
Dupduru göllərin var.
Yamyaşıl çöllərin var.

Dağların baş-başadır,
Düzlərin tamaşadır.
Dərələrin dərindir,
Yaylaqların sərindir.

Nə gözəldir qucağın.
Doğma odun-ocağın!
Kəndlərin gül-çiçəkdir.
Sakitdir gen düzlərin.
Coşğundur dənizlərin.

Sən dünyanın gözüsən,
Taleyimin özüsən.
Sevirəm bayrağini,
Öpürəm torpağını!

Burada vətənin gözəlliyindən, təmiz təbiətindən, yaşıllığından, torpaqlarının məhsuldarlığından və s. bəhs edir. Bununla da şagirdlərdə öz vətəninə, onun torpağına sevgi hissi tərbiyə edilir. Şagirdlər öz vətəninin nə qədər qiymətli olduğunu dərk edir və öz vətənini,

onun təbiətini qorumağı özünə borc bilirlər.

II sinif Azərbaycan dili dərslərində bununla yanaşı ata-anaya, ailəyə məhəbbət hissini özündə əks etdirən Gəray Fəzlinin "İsti ana qucağında" şeirini, Dilruba Cəfərovanın "Qayğıkeş valideyinlər" mətnləri problem baxımından böyük əhəmiyyət kəsb edir. I sinif Azərbaycan dili dərsliyində əməkseərliliklə, zəhmətkeşliklə bağlı "Quşların dostları", "Çörək bərəkətdir", "Qənaətçilik" hekayəsi, II sinif dəsliyindəki "Bağban və oğulları" rəvayətini nümunə göstərmək olar. Burada əsas məqsəd şagirdlərə əməyi sevdirmək, onları zəhmətkeşliyə alışdırmaqdır.

Şagirdlərin milli-mənəvi ruhda tərbiyə olunması üçün Azərbaycan dili dərslərində hər hansı bir mövzunun səhnələşdirilməsi şagirdlərə bu movzunu daha yaxşı mənimsəməyə kömək edir. Azərbaycan dili dərslərində xüsusi tarixi günlərin qeyd olunması, ənənəvi bayramların keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Bu zaman şagirdlər evdə nənə və babalarından, yaxın qohumlarından tarixi günlər haqqında, milli bayramlarımız haqqında məlumat əldə etməyə can atırlar. Bu da onların şəxsiyyət kimi formalaşmasına, vətəninə, ailəsinə layiqli bir övlad olmasına gətirib çıxarır.

Azərbaycan dili dərslərində vətənpərvərlik, humanizm, qonaqpərvərlik və s. kimi hisslərlə yanaşı, düzlük və doğruçuluq hissləri də tərbiyə edilir. Düzlük və doğruçuluq digər əxlaqi keyfiyyətləri, bir neçə komponentini özündə birləşdirir. Düzlük və doğruçuluq ən gözəl əxlaqi keyfiyyətdir. Şagirdlər həmişə düz danışmalı, yalanı özlərinə yaxın buraxmamalıdırlar. Ata-anaya, yoldaşlarına, müəllimlərə, əhatəsində olduğu insanlara düz söz deməli, onlara yalan söyləməməlidirlər. Bunun üçün Azərbayan dili dərsi çox böyük imkanlara malikdir. I sinif dərsliyindəki Akif Meheətin "Qeybət" əsərini misal göstərmək olar. Burada yoldaşlar, ailə arasında və yaxud məllimlə şagird arasında söz gəzdirməyin nə qədər pis iş olduğundan bəhs edilir. Düzgün, ağıllı bir insanın bu cür vərdişlərdən uzaq olmasını məsləhət edir.

Ümumiyyətlə, kiçik yaşlı şagirdlərin milli-mənəvi ruhda tərbiyə olunması onların bir şəxsiyət kimi formalaşmasında çox böyük rol oynayır. Bu baxımdan ibtidai siniflərdə tədris olunan Azərbaycan dili dərsi çox böyük imkanlara və yollara malikdir. Məhz Azərbaycan dili dərslərində şagirdlərə vətənpərvərlik, humanizm, qonaqpərvərlik, ata-anaya məhəbbət, düzlük, doğruçuluq və s. kimi hisslər tərbiyə edilir. Bu da şagirdin bir şəxsiyyət kimi yetişməsində, öz vətəninə, xalqına faydalı bir insan olmasında çox böyük rol oynayır.

**Məqalənin aktuallığı**. Məqalə ibtidai sinif şagirdlərinin milli-mənəvi ruhda tərbiyə olunmasında Azərbaycan dili fəninin rolunun öyrənilməsi baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi**. Məqalə ibtidai siniflərdə tədris olunan Azərbaycan dili fəninin tədrisi prosesində milli-mənəvi dəyərlərin aşılanması imkanları konkret nümunələr əsasında təhlil olunmuş və şagirdlərin formalaşmasında onların rolu işıqlandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. L. Qasımova. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. "Nurlan" nəşriyyat, Bakı, 2004, 220 səh.

2. A. Şaiq. Əsərləri (beş cilddə). 4-cü cild, Azərnəşr, Bakı, 1977.

3. P.Əliyev, H. Əhmədov. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, "Təhsil", 2006, 264 səh.

4. I sinif. Azərbaycan dili dərsliyi. Bakı, "Altun kitab", 2016, 160 səh.
5. II sinif. Azərbaycan dili dərsliyi. Bakı, "Altun kitab", 2017, 208 səh.
6. III sinif. Azərbaycan dili dərsliyi. Bakı, "Altun kitab", 2018, 208 səh.
7. IV sinif. Azərbaycan dili dərsliyi. Bakı, "Altun kitab", 2015, 224 səh.

**Г.Гаджиева**

## Из практики воспитание школьников в духе национальных и духовных ценностей на уроках азербайджанского языка в начальных школах

## Резюме

В статье определилась роль урока азербайджанского языка в воспитание школьников в духе национальных и духовных ценностей начальных школах.

**H.Haciyeva**

## Role of the lessons of Azerbaijan language is defined in the article in primitive classes in the spirit of national-moral values in the upbringing of pupils

## Summary

Place of National-moral values in Azerbaijan language lessons has been identified, direction of them has been disclosed.

**Redaksiyaya daxil olub:** 12.10.2018